# Daha böyük Zəfərlərə nail olacağıq

*Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə ölkəmiz çox böyük inkişaf yolu keçibdir. Xüsusilə də dörd il bundan öncə işğal altında olan torpaqlarımızın azad edilməsi və tarixi zəfər qazanılmasından sonra Qarabağ və Şərqi Zəngəzurda quruculuq-abadlığın həyata keçirilməsi, keçmiş məcburi köçkünlərin uzun illərdən sonra öz doğma torpaqlarına qayıdışı hər bir Azərbaycan vətəndaşının arzusu və istəyi idi. Bu gün Qarabağ və Şərqi Zəngəzurda elə böyük miqyasda quruculuq və yenidənqurma həyata keçirilir ki, faktiki olaraq bu genişmiqyaslı işlər sözlərə sığmır.*

Yeni tikilən tunellər, salınan yollar, istifadəyə verilmiş beynəlxalq hava limanları, hazırda tikintisi davam etdirilən Laçın beynəlxalq hava limanı, dəmir yolu xətlərinin çəkilməsi, Zəngəzur dəhlizinin açılması ilə əlaqədar hazırlıq işlərinin görülməsi və buna paralel olaraq İran ərazisindən keçməklə Naxçıvanı Zəngilana birləşdirəcək alternativ avtomobil və dəmir yolu xətlərinin çəkilməsi, su, günəş elektrik stansiyalarının tikintisi, günəş panellərin quraşdırılması, alternativ enerji keçidin təmin edilməsi üçün "yaşıl enerji" resurslarının istifadəsi ilə əlaqədər xüsusi layihələrin həyata keçirilməsi qürur doğurur. Bir sözlə, cənab Prezidentin rəhbərliyi ilə bu uğurlara imza atılıb. 44 günlük Vətən müharibəsindən sonra məhz Ali Baş Komandan cənab İlham Əliyevin həyata keçirdiyi uğurlu xarici siyasət nəticəsində Azərbaycana qarşı təzyiqlər və təhdidlər sıfıra endirilib. Ölkəmizin yaratdığı yeni reallıqlar dünya və region dövlətləri tərəfindən qəbul edilib.





## XALQIMIZIN İLHAMI...

**Dayanaraq sözündə -**
**Zəfər oldu amalın,**
**Yüksəltdin Yer üzündə**
**Vətənimin sanbalın.**

**Sən çağlayan ümmanın**
**Ortasında bir Mayak,**
**Adın Öndərlə birgə**
**Tarixlərdə qalacaq.**

**Halal olsun, Öndərdən**
**Qazandığın öyüdün,**
**Xilaskar olmaq üçün**
**Xalqımla bir böyüdün!**

**Ordular Sərkərdəsi -**
**Dağıtdın dayaqları,**
**Dəmirdən yumruğunla**
**Ucaltdın bayraqları.**

**Gəlir Vətənin ətri**
**Xankəndidən, Şuşadan,**
**Səni Millətdən ötrü**
**Xəlq etmişdi Yaradan.**

**Arzu kimi qalmadı**
**Millətimin inamı,**
**Var ol, Prezidentimiz,**
**Xalqımızın İlhamı...**

**Vahid ƏZİZ,**
**Xalq şairi.**

*13.12.2024.*

Həmişə olduğu kimi, son illərdə də Prezidentin rəhbərliyi ilə uğurlu sosial siyasət həyata keçirilib. Şəhid ailələrinin mənzil-məişət problemləri aradan qaldırılıb. Bu sahədə böyük işlər görülür və 2025-ci ilə qədər planlı şəkildə mənzillərin verilməsi davam etdiriləcəkdir. Həmçinin müharibə veteranlarının, qazilərin sağlamlığının qorunması və onların müalicəsi ilə ciddi məşğul olunur. Müasir tipli protezlər müharibə veteranlarının normal həyata qayıtması üçün onların itirilmiş əzaları əvəzinə quraşdırılıb. Onlar daim reabilitasiya mərkəzlərində xüsusi müalicələrdən keçirilir. Bir çox qazilərimiz isə qardaş Türkiyədə müalicə olunublar. Həmçinin veteranlarımız, əlillərimiz üçün xüsusi avtomobillərin verilməsi də həyata keçirilir. Mütəmadi olaraq məhz sosial qayğıya ehtiyacı olan kateqoriyaya daxil olan insanlar üçün xüsusi müavinətlərin verilməsi, onların istək və arzularının yerinə yetirilməsi, məşğulluq probleminin həlli ilə bağlı çox böyük işlər görülmüşdür.

2023-cü ilin sentyabr ayında birgünlük antiterror tədbirləri nəticəsində suverenliyimizi tam olaraq bərpa etdik. Xüsusilə də uzun illər işğal altında olan torpaqlarımızda üçrəngli bayrağın dalğalanması, həqiqətən də, bizi qürurlandırır. Şəhərlər, qəsəbələr, yeni kəndlər, yaşayış massivləri salınır. Artıq burada normal həyata qayıtmaq üçün təxirəsalınmaz işlər görülür. Eyni zamanda Xankəndidə Qarabağ Universitetində bu ildən başlayaraq ilk tələbələrin təhsilə başlaması, gələcəkdə Azərbaycanın kadr potensialının artırılması, həmçinin Qarabağ və Şərqi Zəngəzurda fəaliyyət göstərəcək gənc kadrların yetişdirilməsi və Azərbaycan təhsil sisteminin inkişafı üçün əvəzsiz rol oyanayacaq. Hətta böyük ehtimalla yaxın gələcəkdə regionumuzun ən aparıcı, populyar, reytinqli universitetlərindən birinə çevriləcəkdir. Biz çox xoşbəxt insanlarıq ki, bizim Ali Baş Komandan, cənab Prezident İlham Əliyev kimi liderimiz var. Azərbaycan xalqı həmişə ulu öndər Heydər Əliyev siyasətinə sadiq qalıb, ata vəsiyyətini yerinə yetirib.

Ölkə başçımız tərəfindən Qərbi azərbaycanlıların hüquqlarının bərpası ilə bağlı sistemli işlər görülür. Qərbi Azərbaycan İcmasının fəaliyyəti cənab Prezident tərəfindən tam olaraq dəstəklənir. 2 il bundan öncə ölkə başçısının öz doğum günündə, 2022-ci ilin dekabrın 24-də Qərbi Azərbaycan İcmasının qərərgahına gəlib, bir qrup ziyalı ilə görüşərək xüsusi mesajların verilməsi bu prosesə daha da təkan verdi. Ötən günlərdə Rusiyanın aparıcı telekanallarından birinə müsahibəsi zamanı da Prezidentin cəsarətli və açıq mətinlə səsləndirdiyi sözlər onu deməyə imkan verir ki, Azərbaycan balanslaşdırılmış xarici siyasət həyata keçirir, Türkiyə ilə strateji müttəfiqlik, qardaşlıq əlaqələrini uğurla davam etdirir. Eyni zamanda bizim qonşumuz olan Rusiya ilə də münasibətlərimiz yüksək səviyyədədir.

Azərbaycan Orta Dəhlizin inkişaf etdirilməsi üçün layihələr həyata keçirir. Çini Avropaya birləşdirəcək ən sürətli dəmir yolu xəttinin, nəqliyyat dəhlizinin mərkəzində olmaqla Azərbaycanla yükdaşımaların həcminin artırılmasında daha böyük işlər görüləcəkdir. Ələt İqtisadi Zonası bu işlərin reallaşdırılması üçün əla bir fürsətdir. Eyni zamanda Ermənistanla sülhün əldə edilməsi və daha sonra kommunikasiyaların açılması, xüsusilə də Zəngəzur dəhlizinin işə düşməsi Azərbaycanın bu günə qədər reallaşdırdığı nəqliyyat şəbəkəsini daha da gücləndirəcəkdir. Bizim alternativ yollarımızın sayı və yükdaşıma gücümüz daha da artmış olacaqdır. Bir sözlə, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında Azərbaycan günü-gündən güclənir, inkişaf edir, ölkəmizin suverenliyi və müstəqilliyi ölkə başçısının rəhbərliyi dövründə daha da möhkəmlənib. Nə qədər ki, Azərbaycan var olacaq, həmişə ulu öndər Heydər Əliyev siyasətinə sədaqət davam edəcəkdir və hər kəs Ali Baş Komandanın ətrafında sıx birləşəcəkdir.

İnanıram ki, ölkə başçısının rəhbərliyi ilə biz daha böyük zəfərlərə imza atacağıq.

**Naqif HƏMZƏYEV,**
**Milli Məclisin deputatı.**